

# ŞƏRQ qapısı


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 126 (24.013)

7 iyul 2022-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Ramana qəsəbəsində görülən abadlıq işləri ilə tanış olub. "Bakı Abadlıq Xidməti" MMC-nin baş direktoru Bünyad Qasımov qəsəbədə görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verib. Bildirilib ki, Ramana qəsəbəsində yenidənqurma işləri yekunlaşıb, qəsəbədaxili yollar asfaltlanıb, divar və dam örtükləri yenilənib, küçələrin işıqlandırılması həyata keçirilib. Qəsəbənin Həsənbəy Zərdabi, Xanlar, Mirzəağa Əliyev, Əbdürrəhim bəy Haqverdiyev və qəbiristanlıq ətrafı küçələri tamamilə yenilənib. Prezident İlham Əliyevə buradakı qədim Novruzqulu hamamı barədə də məlumat verilib.

Dövlətimizin başçısına Ramanada əhalinin məşğulluğunun artırılması sahəsində görülən işlər barədə də məlumat verilib. Qeyd edilib ki, qəsəbədə xalçaçılıq müəssisəsi və satış mağazası açılıb. Yaradılan yeni iaşə və xidmət obyektlərində məhsulların istehsalı və satışı həyata keçirilir.

Prezident İlham Əliyev Ramanadakı evlərdən birinin həyətində qəsəbə sakini ilə söhbət edib, Ramana İdman Mərkəzində yaradılan şəraitlə də tanış olub.

"Sənaye ili" – 2022

## Sənayenin inkişafında elmin dəstəyi

*Müasir dünyada baş verən mürəkkəb iqtisadi, eləcə də geosiyasi proseslər bir daha göstərir ki, iqtisadi təhlükəsizliyə tam şəkildə nail olunması dövlətlərin müstəqil siyasət yürütməsinin əsasında dayanır. Bu mənada, bütün təbii və əmək resurslarını iqtisadi dövriyyəyə cəlb edə bilən sənayenin inkişafı təkcə insan həyatının bütün tələbatlarını ödəyən bir sahə kimi deyil, eyni zamanda ölkələrarası güc balansında da olduqca əhəmiyyətlidir. Ona görə də muxtar respublikamızda "Sənaye ili" elan olunmuş 2022-ci ildə həyata keçiriləcək bütün tədbirlər məhz bu vacib sahənin daha da inkişafı üçün dövlətin qarşıya qoyduğu vəzifələrə xidmət edir.*

Müasir iqtisadiyyatın özünəməxsus problemləri vardır. Xüsusən resursların məhdudluğu, artan əhali sayı, dünya bazarında baş verən tərəddüdlər bu problemləri daha da artırır. Qloballaşmanın genişlənməsi ilə tələbatların artması, uşaq oyuncağından tutmuş kosmik texnologiya məhsulları istehsalınadək hər yerdə yeniliklərin sürətlənməsi də bu baxımdan sənayeni yüksək rəqabət sahəsinə çevirir. Dünyada enerji resurslarının bahalaşması, xüsusən də artıq zəifləməkdə olan pandemiyanın vurduğu zərərlər nəticəsində logistika zəncirinin qırılması kimi problemləri də buraya əlavə etsək, yerli xammala əsaslanan sənaye məhsulu istehsalının davamlı inkişaf üçün nə qədər əhəmiyyətli olduğunu görərik.

Mədəni tələbatların sürətlə dəyişildiyi cəmiyyətdə sənayenin mühüm əhəmiyyəti vardır. Belə ki, sənayenin inkişafı sayəsində maddi nemətlər daha faydalı və daha əlçatan, xidmətlər isə daha komfortlu olub mühüm keyfiyyət dəyişikliklərini özündə birləşdirir. Buna görə də sənayenin inkişaf məsələləri tarixən də aktual olmuşdur. Çünki sənaye iqtisadiyyatın inkişafı ilə yanaşı, eyni zamanda elmi biliklərin də tətbiqinin ən geniş sahəsidir. Məhz bu səbəbdən ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun xüsusi çəkisinin artırılması istiqamətində qarşıya qoyulmuş vəzifələrə uyğun olaraq Naxçıvan Muxtar Respublikasında da sənayenin, xüsusən yüksək əmək və elm tutumlu sənaye sahələrinin genişləndirilməsi yolu ilə son məhsulun hazırlanması və məşğulluğun təmin olunması prioritet sahə kimi diqqətdə saxlanılır.

Sənaye, eyni zamanda elmdə əldə olunmuş biliklərin də praktik tətbiqinin ən yaxşı sahəsidir. Dünya təcrübəsi göstərir ki, məhz elmi məhsulların ərsəyə gətirildiyi elm və təhsil müəssisələrinin əsas gəlir qaynaqlarından biri ixtira, kəşf və yeniliklərin sənayedə tətbiq olunması, bunun üçün kommersiya sifarişlərinə əsaslanan müqavilələrin yerinə yetirilməsidir. Bu mənada, Naxçıvanın mövcud təbii və əmək ehtiyatlarının öyrənilməsi, işgüzar fəaliyyətin dəstəklənməsi, sahibkarlıq fəaliyyəti üçün yeni biznes ideyaların irəli sürülməsi baxımından elmi araşdırmalar üçün əla mühit yaranmışdır. Naxçıvanın geostrateji və tranzit imkanlarının artması, turizm, beynəlxalq ticarət və logistika üçün əlverişli şəraitin yaranması da bu mühiti zənginləşdirir. Ona görə də indi muxtar respublikada sənaye komplekslərinin yaradılması, bir sıra sahələrdə, xüsusən emal sənayesi kimi sahələrdə ixtisaslaşmanın mənimsənilməsi ilə ölkəmizi brend məhsullarla tanıda biləcək ixracyönümlü sənaye məhsulları istehsalına nail olmaq üçün ciddi elmi nəticələrə ehtiyacı vardır.

Son illərdə Naxçıvanda sənaye məhsulu istehsalına ciddi diqqət yetirilir. Belə ki, statistik məlumatlara əsasən 2000-ci ildə muxtar respublikada istehsal olunmuş sənaye məhsulunun həcmi cəmi 13 milyon 765 min manat, onun hər bir nəfərə düşən həcmi isə 38 manat olmuşdur. Bundan sonra həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində 2010-cu ildə bu rəqəmlər müvafiq olaraq 318 milyon 565 min manat və 777 manat olmuşdur. Bu dinamika sonrakı dövrlərdə də davam etmiş və ötən 2021-ci ilin sonuna muxtar respublikada sənaye məhsulunun həcmi artaraq 1 milyard 69 milyon manatdan çox olmuşdur ki, bunun da 92 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. Bu dövrdə adambaşına düşən sənaye məhsulunun həcmi 2 min 310 manata çatmışdır ki, bu da indiyə qədər əldə olunmuş rekord səviyyədir. Sənayenin inkişafına göstərilən dövlət qayğısını bu sahəyə yönəldilmiş əsas fondların həcmi ilə ifadə etsək, 2010-cu ildə bu rəqəm 113 min 726 manat olduğu halda 2020-ci ildə bu rəqəmin üç dəfədən çox artaraq 358 min 267 manata çatdığını görürük.

Muxtar respublikamızın paytaxt şəhəri Naxçıvan və onun ətraf əraziləri iri sənaye məhsulu istehsalı potensialına malikdir. Belə ki, 2021-ci ildə Naxçıvan şəhərində istehsal edilmiş sənaye məhsulunun həcmi 785 min manatdan çox olub ki, bu da ümumi muxtar respublika üzrə göstəricinin 75 faizinə qədəri deməkdir. Daha sonra gələn Babək və Şərur rayonlarının göstəriciləri də kifayət qədər yüksək olub, daha böyük potensialdan xəbər verir. Ona görə də "Sənaye ili"ndə bu və digər bölgələrdə daha çox sənaye məhsulları istehsalı üçün yeni layihələrin reallaşacağını qeyd etmək olar. İndi Naxçıvanda istehsal olunmuş məhsulların yerli tələbatı ödəməklə yanaşı, "Made in Azerbaijan" brendi altında ölkəmizdən xaricə də ixrac olunması, ölkəmizə valyuta vəsaitləri qazandırması və muxtar respublikamızın istehsalçı imicinin daha da yüksəldilməsi üçün həmişəkindən yaxşı imkanlar vardır. Bu da, öz növbəsində, gələcəkdə yeni layihələrin həyata keçirilməsi deməkdir.





Yeni layihələr iqtisadiyyatın, xüsusilə sənayenin şaxələndirilməsində müstəsna əhəmiyyətli olmaqla yanaşı, eyni zamanda biznes təşəbbüslərinə də geniş meydan açır. Bu mənada, Naxçıvanda gənc startapçıların dəstəklənməsi, müxtəlif ixtisasların hamiliyə verilməsi, təhsil müəssisələrində STEAM kabinələrinin yaradılması kimi tədbirlər gənclərin yaradıcı ideyalarının daha da genişləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Gənclərdə bu istiqamətdə biliklərin dərinləşdirilməsi, onlara gələcəkdə qlobal dünyanın bir üzvü kimi ölkəmizin iqtisadiyyatını yeni ideyalarla zənginləşdirməkdə kömək edəcək. Xüsusən Naxçıvan Dövlət Universitetində yaradılmaqda olan Texnopark ölkəmizdə bu sahədə ilk təşəbbüs kimi Naxçıvanın daha yaxından tanınmasında, regionun iqtisadi potensialının artmasında, elm və iqtisadiyyatın inteqrasiyasında mühüm əhəmiyyətli hadisə olacaq. Bu həm də elmi məhsulların mübadiləsi üzrə dövlət və özəl sektor müəssisələri ilə qarşılıqlı əməkdaşlıqda yeni mərhələnin əsasını qoyacaqdır.

*Cəmiyyətin keçdiyi bütün inkişaf mərhələlərində elmi biliklərin rolu əsas olub. Məhz əldə olunmuş elmi nəticələr sayəsində bəşəriyyət keçmişdən kosmos və internet erasınadək uzunmüddətli yol keçib. Müasir qloballaşma dövründə elmi nailiyyətlərdən daha dərin bəhrələnmək üçün isə iqtisadiyyatın bütün sahələrində, xüsusilə sənayedə görüləcək çox işlər vardır.*

**Əli CABBAROV**

## Muxtar respublikada əmək pensiyalarının və məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin ödənişi başa çatdırılıb

***Muxtar respublikada vətəndaşların pensiya təminatının təkmilləşdirilməsi, pensiyaçıların həyat səviyyəsinin yüksəldilməsi və maddi rifah halının yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılır.***

Bu istiqamətdə idarəetmənin təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunda və onun yerli qurumlarında müasir standartlara uyğun iş yerləri yaradılıb, vətəndaşlara göstərilən xidmət müasir səviyyədə qurulub. Bunun nəticəsidir ki, hər ay olduğu kimi, iyul ayında da əmək pensiyalarının maliyyələşdirilməsi vaxtından əvvəl başa çatdırılıb. Eyni zamanda sığorta prinsipi ilə pensiya alanların hər birinə 2022-ci il üzrə verilməsi nəzərdə tutulan 200 manat maddi yardımın üçüncü rübü üzrə 50 manatı da pensiya ilə birlikdə ödənilib. Həmçinin qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarına pensiya məbləğlərinin 10 faizi məbləğində maddi yardımın ödənilməsi də təmin edilib. Təyin olunan əmək pensiyalarının ödənişi plastik kartlar vasitəsilə pensiyaçılara çatdırılıb. İstəklərinə uyğun olaraq kəndlərdə yaşayan əmək pensiyaçıları yaşadığı məntəqədən kənara getmədən, ərazidə yerləşən poçt bölmələri vasitəsilə də pensiyalarını rahatlıqla əldə ediblər. Pensiya ödənişi ilə birlikdə əhaliyə məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin də ödənilməsi başa çatdırılıb, həmin şəxslərin şəxsi hesablarına vəsaitin köçürülməsi təmin olunub.

Qeyd edək ki, fond qanunvericiliklə müəyyən olunan məbləğlərdə daxil olan məcburi dövlət sosial sığortahaqqı hesabına pensiya və müavinətləri maliyyələşdirir. Daxilolmaların səviyyəsinin yüksək olması pensiya və müavinətlərin vaxtından əvvəl maliyyələşdirilməsinə imkan yaradır. Muxtar respublikada daxil olan məcburi dövlət sosial sığortahaqqının məbləği ildən-ilə artmaqdadır. Bunun əsas səbəbi muxtar respublikada sosial-iqtisadi inkişafın dinamik artımı ilə əlaqədardır.

Fond bundan sonra da əhalinin sosial rifah halının yaxşılaşdırılmasına xidmət edən tədbirlərin icrası ilə bağlı müvafiq işləri həyata keçirməyə davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

*Xidməti işimlə əlaqədar tez-tez muxtar respublikanın ayrı-ayrı yaşayış məntəqələrində oluram. Hər bir gedişimdə isə ən müxtəlif sahələrdə belə hər birimizin qəlbini qürur və sevinc hissləri ilə dolduran yeniliklər görürəm. Təkcə mən yox, qədim diyarımızın istənilən ünvanına yolu düşənlər də... Ötən həftəsonu Ordubadda da belə oldu. Əvvəlcə onu deyim ki, yaşlı naxçıvanlılar tarixən meyvəçilik diyarı kimi tanınan Ordubad rayonunda bu sahənin böyük şöhrətə sahib olduğunu yaxşı bilirlər. Burada becərilən müxtəlif meyvə sortları keçmiş Sovetlər Birliyinin bütün müttəfiq respublikalarına, həmçinin bir çox xarici ölkələrə göndərilirdi. Rayon ərazisində sahələri ilbəil artırılan meyvə bağlarının həcmi min hektarı ötmüşdü. Ən böyük ictimai təsərrüfatlar bu gəlirli təsərrüfat sahələrində qazandıqları uğurlara görə mərkəzi hakimiyyət tərəfindən dəfələrlə yüksək təltiflərə, müxtəlif ölkə sərgilərində qızıl medallara layiq görülmüşdü. Bununla bağlı mənbələrdə olan zəngin məlumatlardan birini oxucuların da diqqətinə çatdırmaq istəyirəm.*

## Ənənəvi təsərrüfat sahələri dirçəldilir, yeni sahələr yaradılır



Ordubadda yetişdirilən “Əbutalibi” əriyi 1898-ci ildə Kaliforniyada təşkil olunan meyvə sərgisində birinci yerə sahib olmuşdu. Ordubad meyvələri, xüsusilə də müxtəlif ərik sortları barədə “Naxçıvan tarixi” çoxcildliyinin ikinci cildində oxuyuruq: “Ordubad əriyi yüksək xüsusiyyətlərinə görə Cənubi Qafqazın ərik növləri içərisində ən üstün pillədə duran meyvə növü sayılırdı. Hər il orta hesabla Ordubaddan Tiflisə, oradan isə Ağstafa dəmir yolu vasitəsilə Rusiyanın mərkəzi şəhərlərinə 150 min pud quru ərik daşınırdı. Sırf ərik ağacları ilə əhatə olunmuş torpaq sahələri iri sahibkarların əlində cəmləşdiyindən onlar böyük var-dövlət yiyəsi sayılırdılar. A.X.Pollovun hesablamalarına görə, bu cür ərik ağacları əkilmiş hər desyatin torpaq sahəsində 200 ortayaşlı ağac olurdu və bunların hərəsindən 600 pud məhsul götürürdülər. Ərik qurusunun hər pudu həmin ərazidə 50 qəpiyə satılırdı. Hər desyatin ərik bağından sahibkarlar 280 manat təmiz gəlir götürə bilirdilər...”

Xarici ölkə səyyahlarının, bəzi tarixçilərin Ordubadın təbiəti və füsunkar gözəllikləri, burada yetişdirilən meyvələrin dad-tamı barədə dedikləri bölgənin bu sahə üçün çox əlverişli məkan olduğunun sübutudur.

Ancaq... 1988-ci ildə başlanan hadisələrin ölkədə yaratmağa başladığı anarxiya, xaos güclündikcə meyvəçiliyi də iflic vəziyyətinə saldı. Min bir zəhmətlə ərsəyə gətirilmiş bağların kökünə balta vuruldu. Bu proses o vaxta qədər davam etdi ki, ümummilli liderimiz Naxçıvana qayıtdı və mövcud vəziyyəti çox düzgün dəyərləndirərək muxtar respublikada torpaq islahatlarına başlanılması qərarına gəldi.

... Bu gün ölkəmizdə bərqərar edilmiş ictimai-siyasi ab-havanı, bu hesaba nail olduğumuz sosial-iqtisadi inkişafı doğma muxtar respublikamızda bütün sahələrdə görmək olar. Günü-gündən öz inkişafının yeni mərhələlərini yaşayan Ordubad da müstəqilliyimizin işığında qurur-yaradır.

Rayon İcra Hakimiyyəti əməkdaşlarının söhbətlərindən, gəzib-dolaşdığım yaşayış məntəqələrindən gəldiyim qənaət o oldu ki, Ordubad öz “bağlar diyarı” statusunu daha da zənginləşdirməkdədir. Bu yazıda digər sahələrdən deyil, ancaq bir sıra təsərrüfat sahələrində həyata keçirilən tədbirlərdən, qazanılan uğurlardan, gələcək perspektivlərdən bəhs etmək istəyirəm.

Rayona yolu düşənlər, yəqin ki, Naxçıvan-Ordubad magistralının Aza kəndi ərazisindən başlayaraq yol kənarlarının yaşıllığa büründüyünü görüblər. Son illər həyata keçirilən ekoloji tədbirlər yol kənarlarının, həmçinin rayonun kənd yaşayış məntəqələrinin ərazilərində minlərlə meyvə və meşə tingi əkilib. Bu sahələrin su təminatı yaxşılaşdırılıb.Ordubadlıların bağçılığa, ümumilikdə isə yaşıllığa güclü marağının ifadəsidir ki, daha hansısa idarə, təşkilat və ya müəssisəyə sahələrə aqrotexniki qulluq göstərməyin vacibliyini demək lazım deyil. Hər bir təşkilat, təşkilatın əməkdaşları bunu özlərinin vətəndaşlıq borcuna çeviriblər. Bunun hesabınadır ki, son illərdə salınmış 138,6 hektar meyvə bağlarının böyük əksəriyyəti artıq bar verir. Ötən təsərrüfat ilində bağlardan 869,2 ton meyvə tədarük edilib. Tədarük olunan məhsulun göndərildiyi ilk ünvanlar isə rayon ərazisində yerləşən hərbi hissələrdir. Yeri gəlmişkən onu da qeyd edək, əkilmiş tinglərin hamısı məhsuldar, dadlı-tamlı yerli sortlardır. Ordubadda isə belə sortları saymaqla qurtarmaz. Əbutalibi, Haqverdi, şalax, göycənabat, ağcanabat, badamı, kəri-kəri, növrəstə, balyarım, gilərik...





Ordubadlıların meyvəçiliyə böyük marağının daha bir ifadəsini bunda görürük ki, məlum hadisələr dövründə çətinliklə də olsa, həmin sortları həyətyanı torpaq sahələrində qoruyub saxlaya biliblər. İndi isə həmin qiymətli sortların əkildiyi ictimai bağlar, eləcə də sakinlərə məxsus pay torpaqları göz oxşayır. Cari ildə də daha bir neçə hektar sahədə yeni bağ salıblar. Bu kampaniya payız iməciliklərində davam etdiriləcək. Hazırda bağ və yaşıllıq sahələrində aqrotexniki tədbirlər həyata keçirilir, ərazilər alaq otlarından təmizlənir, suvarılır, ağacların quru budaqları kəsilir, gövdələr ağardılır.

Ordubad həm də dadlı-tamlı üzüm sortlarının yetişdirildiyi məkandır. Sovet dönəmində rayonun Aza, Azadkənd, Sabirkənd, Qoşadizə, Baş Dizə, Kələntər, Düylün və digər yaşayış məntəqələrində yüz hektarlarla üzüm bağları olub. Bu bağlara daimi iş yeri kimi baxılıb. Üzümçülükdə qazanılan uğurlara görə Aza sovxozu bir neçə dəfə mərkəzi hakimiyyətin keçici qırmızı bayrağını alıb. Bu sətirlər müəllifinin gözü qarşısındadır ki, məhz həmin illərdə bu sahə hesabına əhalinin gün-güzəranı xeyli yaxşılaşmışdı. Təəssüf ki, həmin bağların taleyi də meyvə bağları kimi oldu. Yaxşı ki, həyətyanı təsərrüfatlardakı üzüm kolları qorunub saxlanıldı. Bu gün kənd adamlarının pay torpaq sahələrində saldıqları bağlar məhsul verməkdədir. İməciliklər yolu ilə isə rayonun müxtəlif ərazilərində 6,7 hektar sahədə salınmış üzüm bağlarından ötən il 54,5 ton məhsul tədarük edilib. Əylis düzü ərazisində daha 1,5 hektar ərazidə üzüm bağı salınıb. Mövsüm vaxtı bu bağdan da məhsul tədarük ediləcək.

Bu qədim yurd yerində yetişdirilən digər məhsullar kimi qızılgülün də adı dillər əzbəridir. Rayonda hər evdə istifadə edilən gülab suyu artıq bəzi ticarət obyektlərində satışa çıxarılır. Qızılgüldən ordubadlıların hazırladıqları gülqənd də adla deyilir. Ümumiyyətlə, bu məhsulun Ordubad mətbəxində xüsusi yeri var. Bir neçə ildir ki, qızılgülə olan tələbatı ödəmək üçün 1,5 hektar salınmış qızılgül bağı yerləşdiyi əraziyə bir gözəllik gətirib.

Ordubadda olarkən eşitdiyim yeniliklərdən biri də rayonun Kotam kəndi ərazisində zeytun bağının salınması oldu. İnsan əlinin zəhmətinin yaxın vaxtlarda bəhrə verəcəyi isə şübhəsizdir. Dünənə kimi özünün əriyi, alması, heyvası, üzümü, limonu, qızılgülü ilə tanınan Ordubadda zeytun yetişdirilməsinə başlanılması bölgədə bağçılığa bağlılığın bariz nümunəsidir.

Qısa müddətdə aldığım xoş təəssüratlarla rayon sakinləri ilə həmsöhbət oldum. Bakı şəhərində yaşayan ordubadlı Tahir Kazımov Azadkənddə doğulub. Məzuniyyət günlərini səfalı Ordubadda keçirməyə gəlib. Onunla söhbətimiz yeni fəaliyyətə başlamış “Xan Çinar” İstirahət Mərkəzində oldu:

– Uzun illərdir, Bakı şəhərində yaşasam da, hər ilin yay aylarında yaxınlarımı görmək və məzuniyyətimi burada keçirmək üçün Ordubada gəlirəm. Bölgədə gördüyüm qaynar həyat, insanların yaşayış səviyyəsinin gündən-günə yüksəlməsi bir ordubadlı kimi məndə də qürur hissləri yaşadır.

Tahir müəllim deyir ki, kənddəki xeyir-şər məclislərinə iş yoldaşlarından gələnlər olur. Onlar da burada gördüklərindən ağızdolusu danışırlar:

– Ordubada gələn qonaqları həmyerlilərimin səmimiyyəti və qonaqpərvərliyi, yolların kənarlarında bol məhsuldan başları aşağı enmiş meyvə ağacları və həmişəyaşıl güllərlə yanaşı, artıq rayihəsi adamı uzaqdan vuran qızılgüllər qarşılayır. Bu isə ayağını bu torpağa basan insanda ilk müsbət təəssüratlar yaradır. Sonra isə daha zəngin təəssüratların bolluğuna düşürsən. Belə təəssüratlara istənilən sahələrdə sahib ola bilərsən.

Əslən rayonun Dəstə kəndindən olan, hazırda Moskva şəhərində yaşayan sənətşünas Səfər Əsədov da Tahir müəllimin fikirlərini təsdiq edərək deyir: – Blokada şəraitində yaşayan bir məmləkətdə tarix üçün çox qısa bir zaman kəsiyində on illərə yaxın yol keçən muxtar respublika, onun bütün bölgələrində belə inkişafa nail olunmasında başlıca amillərdən biri qədim diyarda ulu öndərin siyasətinə böyük ehtiram göstərilməsidir. Bunu Ordubad rayonunda da aydın şəkildə görmək olar. Həyatın bütün sahələri – sənaye, kənd təsərrüfatı, müasir informasiya texnologiyaları, turizm – hansı sahəyə baxsaq böyük yeniləmə və inkişaf görərik. Rayona budəfəki gəlişimdə doğulub boya-başa çatdığım kənddə limon istixanasının, Kotam kəndində zeytun, müxtəlif ərazilərdə qızılgül bağlarının salındığını görəndə ordubadlıların ən qiymətli sərvət olan torpağa bağlılıqlarının, zəhmətkeşliyinin bir daha şahidi oldum.

*Rayonun müxtəlif yaşayış məntəqələrində kompleks quruculuq tədbirləri də sürətlə aparılır. Yadıma bu misralar düşdü:*

*Böyük arzularla ucalmaqdasan,*
*Günəşə boylanıb parlamaqdasan,*
*Ey mənim ürəyim, canım Ordubad,*
*Şöhrətim, şərəfim, şanım Ordubad.*

**Muxtar MƏMMƏDOV**

## Torpaqlarda su təminatının yaxşılaşdırılması davam etdirilir

2022-ci ilin iyun ayı ərzində suvarma mövsümünü mütəşəkkil keçirmək məqsədilə cəmiyyətin tabe təşkilatları tərəfindən kanal və arxlarda lildən təmizlənmə işləri davam etdirilmiş, suvarılan sahələrdə qrunt sularının səviyyəsini aşağı salmaq üçün müvafiq işlər görülmüşdür. Hidrotexniki qurğularda təmir işləri yerinə yetirilmiş, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına və su ehtiyatlarından qənaətlə istifadəyə imkan verən müasir suvarma sistemlərinin quraşdırılması davam etdirilmiş, suvarma suyundan səmərəli istifadəyə nəzarət olunmuşdur.

Muxtar respublikanın mövcud su anbarlarında bu ilin iyun ayının sonuna 131,61 milyon kubmetr su ehtiyatı toplanmışdır. Su istifadəçilərinə ötən ay 31,86 milyon kubmetr su verilmiş, bunun müqabilində 26 min 546 hektar torpaq sahəsi suvarılmışdır.

Hesabat ayında 0,79 kilometr istiqamətləndirici bənd tikilmiş, 10,75 kilometr beton və torpaq kanal, 18,35 kilometr ara arxlar, 2 kilometr kollektor lildən təmizlənmiş, 0,43 kilometr içməli su, 0,26 kilometr kanalizasiya xətləri, 0,24 kilometr suvarma, 0,1 kilometr təzyiqli boru xətləri çəkilmiş, 0,33 kilometr yeni kaptaj tikilmişdir. 2,6 kilometr mövcud içməli su, 0,32 kilometr kanalizasiya xətləri, 2,89 kilometr suvarma boru, 2,92 kilometr təzyiqli boru xətlərində, 0,22 kilometr kaptajlarda təmir-bərpa işləri aparılmışdır. Torpaq sahələrinin su ilə təminatının yaxşılaşdırılması və su itkisinin qarşısının alınması məqsədilə mövcud kanal və arxların ehtiyac olan hissələrində təmir-bərpa işlərinin aparılması davam etdirilmişdir.

Yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması hesabına suvarılan torpaq sahələrinin genişləndirilməsi məqsədilə Babək rayonunun Nehrəm qəsəbəsi ərazisində 250 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmişdir. Ərazidə boru xətlərinin çəkilişi üçün qazıntı işləri aparılmış, 137 supaylayıcı hovuz və hidrant quraşdırılmışdır. Çeşməbasar və Güznüt kəndləri ərazisində 240 hektar sahədə qapalı suvarma sisteminin tikintisi üçün hamarlanma işləri aparılmış, 7,8 kilometr müxtəlif diametrli plastik borular qaynaq edilmişdir.

Görülən işlər nəticəsində Şərur rayonunda 9, Sədərək rayonunda 0,7, Naxçıvan şəhəri ərazisində isə 30 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmışdır.

Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərinin 3200 hektar əkin sahələrini suvarma suyu ilə təmin etmək məqsədilə Araz Su Anbarından qidalanan yeni nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisi layihəsi çərçivəsində boru xəttinin yerinin hamarlanması və qazıntısı işlərinə başlanılmışdır.

Ötən ay 3 kəhrizdə təmir-bərpa işləri başa çatdırılmış, 5 kəhrizdə isə işlər davam etdirilmişdir. Suvarma və içməli su mənbəyi kimi istifadə olunan 98 subartezian quyusu təmir olunmuşdur.

Culfa rayonunun Yaycı kəndində əhalinin içməli su təminatının yaxşılaşdırılması məqsədilə su təchizatı şəbəkəsinin tikintisi işləri davam etdirilmiş, müxtəlif diametrli borularla 2,9 kilometr içməli su xətti çəkilmiş, 8 evin su xəttinə birləşməsi aparılmış, 597 sayğac və 6 yanğın hidrantı quraşdırılmışdır. Su anbarlarında əsaslı təmir işləri davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

## Əmək yarmarkası keçirilib

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən iyul ayında ilk əmək yarmarkası Kəngərli rayonunda təşkil olunub.*

Tədbirdə çıxış edənlər bildiriblər ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şərait yaradıb, sosial qayğıya ehtiyacı olan ailələrin özünüməşğulluq imkanları artırılıb. Dövlət proqramının icrası ilə əlaqədar ilin əvvəlində muxtar respublikanın əmək bazarı təhlil edilib, vergi orqanlarında qeydiyyatdan keçmiş işəgötürən fiziki və hüquqi şəxslər haqqında məlumatlar dəqiqləşdirilib, müəssisələr tərəfindən vakansiyalar haqqında hesabatların təqdim edilməsinə nəzarət məqsədilə sahibkarlıq subyektlərində monitorinqlər keçirilib, boş iş yerlərinin toplanması təmin edilib.



Qeyd edək ki, hərbi xidmətdən yeni tərxis olunmuş gənclərin də iştirak etdiyi əmək yarmarkasında işaxtaranlara, ümumilikdə, 16 müəssisədən 102 boş iş yeri təqdim edilib. Nəticədə, 27 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin olunub, 5 nəfərin özünüməşğulluq proqramına, 4 nəfərin isə peşə hazırlığı kurslarına cəlb edilməsi üçün qeydiyyatı aparılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Muxtar respublikamızın tibb sahəsi üzrə ilk professoru

## *Bu, fədakar ömrün, gərgin əməyin bəhrəsi olmaqla yanaşı, həm də Naxçıvanda tibb elminin, səhiyyənin inkişafına böyük qayğının, insan amilinə verilən dəyərin bəhrəsidir*

***Doğma diyarımızda səhiyyənin və tibbi təhsilin inkişafında öz dəstxəti olan, bacarıqlı həkim-cərrah İsa Abdullayevin muxtar respublikamızda tibb sahəsində ilk olaraq professor adına layiq görülməsi təkcə bir insan ömrünün gərgin əməyinin bəhrəsi, elmdə fəth edə biləcəyi zirvə deyil, bütövlükdə, Naxçıvanda tibb elminin, səhiyyənin inkişafına, insan amilinə xidmət edən düşünülmüş siyasətin məntiqi nəticəsidir.***

1955-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Oğlanqala kəndində anadan olan İsa Abdullayev hələ yeniyetmə və gənclik çağlarında sovet hökumətinin gözdən-könüldən uzaq qoyduğu, etinasız yanaşdığı balaca bir kənddə insanların səhiyyə xidmətinə olan ehtiyacını, bəzən həkim çatışmazlığı üzündən həmkəndlilərinin adi bir xəstəlikdən necə əziyyət çəkdiyini, insanlarda tibbi maarifləndirmənin aşağı səviyyədə olduğunu dərk edərək müqəddəs həkimlik peşəsini özünə amal, məram seçir. O, 1961-1971-ci illərdə – Oğlanqala kənd orta məktəbində təhsil aldığı dövrdə o zamanlar üçün əlçatmaz, ünyetməz sayılan bir kənddəki təhsil ocağında ona biologiya, kimya, fizika fənlərini mükəmməl şəkildə tədris edən, onda bu ülvi istəyi alovlandıran müəllimlərini bu gün böyük ehtiramla xatırlayır. Həmin məktəbi fərqlənmə ilə bitirən gənc İsa elə həmin il indiki Azərbaycan Tibb Universitetinin Müalicə-profilaktika fakültəsində ali təhsil almağa başlayır.

Tələbə ikən – 1975-ci ildə Arxangelsk vilayətinin Xolmaqorı rayonunda, 1976-cı ildə isə Perm vilayətinin Vereşşaqina rayonunda tələbə inşaat dəstəsində həkim kimi çalışaraq zəngin təcrübə qazanır. İnstitutu 1977-ci ildə müvəffəqiyyətlə başa vuraraq Bakı Şəhər Təcili və Təxirəsalınmaz Yardım Xəstəxanasının bazasında cərrahiyyə üzrə internatura kursu keçən İsa həkim ilk uğurlarının sevincini yaşayaraq bu peşəyə ürəkdən könül verir. 1978-ci ildə Əziz Əliyev adına Naxçıvan Mərkəzi Uşaq Xəstəxanasında həkim-cərrah kimi əmək fəaliyyətinə başlayır, cərrahi əməliyyatlar zamanı insan taleyinin bir cərrahın əllərinə əmanət olunduğunun məsuliyyətini yaşayır. Gənc həkimin yuxusuz, nigaran gecələrinin yorğunluğunu bir xəstənin şəfa tapmasından doğan sevinc, mənəvi rahatlıq hissi unutdurur.

Ali təhsil illərində dərs aldığı görkəmli professorları, tanınmış alim-həkimləri özünə ideal seçən İsa Abdullayev tibb elminin sirlərinə daha mükəmməl yiyələnmək istəyi, elmi-tədqiqatçılığa olan sonsuz marağı, müntəzəm mütaliə yolu ilə nəzəri biliklərini təkmilləşdirmək arzusu ilə yaşayır, çalışır. O, 1984-cü ildə müsabiqə yolu ilə Moskva şəhərində "Lenin" ordenli 2-ci Moskva Dövlət Tibb İnstitutunun əyani məqsədli aspiranturasına daxil olur, 1987-ci ildə Müalicə-profilaktika fakültəsinin Ümumi cərrahiyyə ka-



fedrasında professor V.M.Buyanovun rəhbərliyi ilə "Kəskin destruktiv pankreatitlərin kriodestruksiya və pankreas axarının okklyuziyasının birgə tətbiqi yolu ilə müalicəsi" mövzusunda dissertasiya müdafiə edərək "tibb elmləri namizədi" elmi dərəcəsi alır.

Aspirantura təhsilini uğurla başa vurduqdan sonra Moskvada qalıb fəaliyyət göstərməklə bağlı təklifə rəğmən xalqına, yurddaşlarına xidmət etməyi, öz həmvətənlərinin sağlamlığının keşiyində dayanmağı hər şeydən üstün tutaraq Azərbaycana qayıdan İsa həkim 1987-1992-ci illərdə Əkbər Nağıyev adına Naxçıvan Şəhər Mərkəzi Xəstəxanasının Cərrahiyyə şöbəsinin müdiri vəzifəsində işləməyə başlayır. 1992-ci ildə Nəriman Nərimanov adına Naxçıvan Respublika Xəstəxanasının bazasında M.A.Bağırov adına Cərrahi Mərkəzin yaradılması ilə əlaqədar rəhbərlik etdiyi şöbə ləğv olunduğundan həmin tarixdən 2004-cü ilə qədər Nəriman Nərimanov adına Naxçıvan Respublika Xəstəxanasının Cərrahiyyə şöbəsində həkim-ordinator vəzifəsində çalışır. 2004-2007-ci illərdə isə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Tibbi yardımın təşkili şöbəsində baş məsləhətçi-cərrah vəzifəsində işləyir, bu illər ərzində bacarıqlı həkim, səriştəli cərrah kimi tanınır. 2007-ci ildə Naxçıvan Diaqnostika Müalicə Mərkəzində baş həkimin müalicə işləri üzrə müavini vəzifəsinə təyin olunan İsa həkim, 2009-cu ildən həmin mərkəzin Cərrahiyyə şöbəsinin müdiri vəzifəsində çalışır.

İsa həkim Naxçıvanda təkcə həkim kimi çalışmamış, eyni zamanda elmi-pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. Müstəqillik illərində muxtar respublikada uğurla aparılan səhiyyə islahatları, müasir tibbi infrastrukturun formalaşdırılması İsa həkimin də fəaliyyətində gələcək uğurlar qazanması üçün mayak olur. Yüksəkixtisaslı tibbi kadrların yetişməsi üçün 1999-cu ildə Naxçıvan Dövlət Universitetində Pediatriya ixtisası üzrə tələbə qəbulu həyata keçirilir. 2003-cü ildə ayrıca Tibb fakültəsi yaradıldığı zaman İsa Abdullayev Ümumi təbabət kafedrasında baş müəllim kimi pedaqoji fəaliyyətə başlayır. 20 ilə yaxındır, Tibb fakültəsində elmi-pedaqoji fəaliyyətini davam etdirən İsa həkim yüzlərlə gənc həkimin yetişməsində böyük əmək sahiblərindən biridir. Dərslərini müasir tələblər səviyyəsində quran İsa həkim yüksək pedaqoji ustalığı ilə auditoriyanı çox asanlıqla ələ almağı, tələbələrin diqqətini özünə yönəltməyi, tədris etdiyi mövzulara uyğun problemli məsələləri qoymağı, dərslərin diskussiya şəraitində qurulmasını məharətlə bacarır. Nəzərə alsaq ki, bütün bunlar gələcəyin həkimlərinin cərrahiyyənin sirlərinə daha yaxşı yiyələnmələri üçün atılan mühüm addımlardır, fəxrlə deyə bilərik ki, Tibb fakültəsindən məzun olan həkimlərin əksəriyyətinin cərrahiyyə istiqamətinə yönəlməsində İsa həkimin cərrahiyyəni tələbələrə daha yaxşı aşılaması və sevdirməsi müstəsna rol oynamışdır. O, baza tibb təhsilindən sonra təhsillərini cərrahiyyə üzrə davam etdirən həkim-rezident hazırlığına da çox ciddi yanaşır, eyni zamanda öz sənətini, elmini, biliyini paylaşmağı, ətrafındakılara aşılamağı çox sevir. Bunun nəticəsidir ki, rəhbərlik etdiyi həkim-rezidentlər günü-gündən daha da püxtələşir və müstəqil həkim-cərrah kimi fəaliyyətə başlayırlar. İsa həkim istər dərs vaxtı, istərsə də imtahanlarda tələbələri çox səbirlə dinləməyi bacarır, problemli məsələlərin həllində onlara düzgün elmi istiqamət verir, həmişə tələbkar, obyektiv və ədalətli olmağa çalışır.

İsa həkim, demək olar ki, çalışdığı həm tibbi, həm də pedaqoji kollektivin sevimli, hörmət və ehtiram qazanan üzvlərindəndir. O bunu diqqətcil, mehriban, qayğıkeş və obyektiv olması, qarşısındakına hər zaman ehtiramla, yanarlılıqla yanaşması sayəsində qazanıb.

İsa həkim həm də yurduna, torpağına bağlı insandır. Ötən əsrin sonuncu onilliyində Naxçıvanın iqtisadi blokadası, bəzi dövrlərdə yaşayış səviyyəsinin çox aşağı olması onu doğulub boya-başa çatdığı torpaqdan uzaqlaşdıra bilmədi. Erməni işğalçılarının Naxçıvana müxtəlif istiqamətlərdən hücumu zamanı İsa həkim də tibbi heyətin tərkibində döyüşlər zamanı yaralanan əsgərlərimizin həyata qaytarılması üçün gecəli-gündüzlü, fədakarlıqla çalışır.

İsa həkimin elmi fəaliyyəti həmişə məhsuldar olub. 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti Yanında Ali Attestasiya Komissiyası tərəfindən "dosent" elmi adı alan istedadlı həkim-alim indiyədək 160-dan çox elmi və elmi-kütləvi məqalənin, 2 metodik vəsaitin, 1 monoqrafiyanın, 1 dərsliyin və 15 səmərələşdirici təklifin müəllifidir. O, elmi fəaliyyətə hələ 1975-ci ildən başlayıb. Həm qəzetlərdə publisist yazılar, həm də elmi araşdırmalarını nəşr etdirib. Xüsusilə peritonitlər sahəsində apardığı uzun illərin elmi araşdırmalarına dair çoxlu məqalələri nəşr olunub. Bu sahədə apardığı tədqiqatların yekunu kimi 2010-cu ildə "Peritonitlər: etiologiyası, patogenezi, modelləşdirilməsi, klinikası, diaqnostikası və müalicə taktikası" adlı irihəcmli monoqrafiyası işıq üzü görür. 2022-ci ildə işıq üzü görən, cərrah-həkim kimi uzun illərin axtarışları, elmi-pedaqoji fəaliyyətin geniş nəticələri, müasir cərrahiyyənin yenilikləri ilə zəngin "Ümumi cərrahlıq" dərsliyi isə qısa zamanda bu sahədə fundamental anadilli tədris materialı kimi elmi-ictimaiyyət arasında böyük maraqla qarşılanır.

İsa həkim, eyni zamanda 2005-ci ildən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin və Azərbaycan Cərrah və Qastroenteroloqları Assosiasiyasının "Cərrahiyyə" jurnalının, 2020-ci ildən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Sağlamlıq" elmi-praktik jurnalının və Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər" jurnalının redaksiya şuralarının üzvüdür. 2020-ci ildən Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurasının sədri kimi bu sahədə elmi kadr hazırlığında da fəal iştirak edir. 2016-cı ildə Azərbaycan Tibb Universitetinin Ümumi cərrahiyyə kafedrasında "Peritonitlərin kompleks müalicəsinin nəticələrinin yaxşılaşdırılması yolları" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək "tibb elmlər doktoru" elmi dərəcəsi alır.

Bu illər ərzində səhiyyənin inkişafına, tibb işçilərinə böyük qayğı ilə yanaşılan muxtar respublikada İsa Abdullayevin də səmərəli fəaliyyəti diqqətdən kənarda qalmır. O, 2001-ci ildə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Fəxri fərmanı, 2005-ci ildə mükafatı, 2006-cı ildə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Fəxri fərmanı, 2008-ci ildə "Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi" fəxri adı, 2009-cu ildə isə "Tərəqqi" medalı ilə təltif edilir. 2009-cu ildə Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının qərarı ilə "İlin alimi" fəxri adına, 2015-ci ildə Fəxri fərmana layiq görülür, 2018-ci ildə isə "Avropa nəşr mətbuat evi"nin "Ən yaxşı vətənpərvər tədqiqatçı alim" qızıl medalı ilə təltif olunur. Tanınmış səhiyyə işçisi, fədakar həkim, yorulmaz elmi-pedaqoji fəaliyyəti ilə həmişə kollektivə nümunə olan İsa Abdullayev Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının qərarı ilə bu yaxınlarda Ümumi təbabət və klinik fənlər kafedrasının professoru adına layiq görülüb.

*Deyirlər, əsl həkimin ömrü yenidən həyat, sağlamlıq bəxş etdiyi insanların ömürləri ilə ölçülür. Əsl həkim ürəyi şəfalı əlləri ilə həyata, cəmiyyətə, doğmalarına yenidən bəxş etdiyi insanların ürəyi ilə birgə döyünür, onlarla birgə yaşayır, yaradır, düşünür, fərəhlənir. Əməliyyat masası arxasında hər saniyənin belə önəmli olduğu məqamlarda qəbul etdiyi ani qərarın məsuliyyətini daşımaq, xəstə yatağının başında yuxusuz gecələr keçirmək, bəzən günlərlə istirahət bilmədən xəstənin bütün ağrı və iztirablarını onunla birgə yaşamaqdır, bir insan itkisinə mənən yanmaq, tükənməkdir, həyata qaytardığı hər bir insanla həyatın sevincini yenidən yaşamaqdır həkim ömrü... Bu müqəddəs peşə sahiblərini bizlərə bu qədər sevdirən, munisləşdirən də elə budur. Bu mənada, muxtar respublikamızda tibb elmləri üzrə ilk professor adını qazanan İsa Abdullayevin uğurları fəxri adlarla, elmi titullarla, bu gün onunla çiyin-çiyinə çalışan istedadlı yetirmələri ilə yanaşı, həm də qazandığı el məhəbbətidir, dövlətimizin onun fəaliyyətinə verdiyi yüksək qiymətdir. Onun fədakarlığı, xeyirxah əməlləri, şəfalı əlləri neçə insan qəlbində sonsuz sevgiyə, minnətdarlıq hissinə çevrilib. Qarşıda isə hələ ümid dolu gözlərini bu nurlu çöhrəyə dikmiş, şəfalı əllərdən həyat bəxşişi uman neçə insan taleyi gözləyir onun yolunu. Biz də insan həyatının müqəddəs keşikçilərindən olan professor İsa Abdullayevə gələcək işlərində uğurlar və hər zaman öz bilik və bacarığı ilə xalqımızın sağlamlığı keşiyində durmağı arzu edirik!*

**Elsevər ƏSƏDOV**
***Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin dekanı, dosent***

# Tələbələr bədii yaradıcılıq müsabiqə-festivalında qalib gəliblər



Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin təşkilatçılığı ilə ali təhsil müəssisələrinin tələbələri arasında keçirilən ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş bədii yaradıcılıq müsabiqə-festivalında qalib gələn Naxçıvan Dövlət Universiteti tələbələri mükafatlandırılıb.

Tədbirdə çıxış edən ali təhsil ocağının rektoru Elbrus İsayev universitetdə fəaliyyət göstərən tələbə təşkilatlarının, tələbə klublarının, komandalarının birgə fəaliyyətini yüksək qiymətləndirib. Qeyd edilib ki, gəncliyin gücü ondan səmərəli şəkildə istifadə olunduqda bəhrəsini verə bilər. Rektor universitetin bütün sahələrində aktiv fəaliyyət göstərən tələbələrin fəaliyyətini təqdir edib, könüllülük fəaliyyəti nəticəsində onların bacarıqlarının ortaya çıxdığı məqamlar diqqətə çatdırılıb. Elbrus İsayev müsabiqədə fəallıq göstərən tələbələri təbrik edib, onlara uğurlar arzulayıb. Milli rəqs nominasiyası üzrə qalib komandaya Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin Fəxri fərmanı, hədiyyə və universitetin təşəkkürnaməsi təqdim edilib. Solo rəqs, milli və dünya xalqlarının çalğı alətləri və vokal nominasiyası üzrə II yeri qazanan tələbələr də Fəxri fərman və təşəkkürnamə ilə təltif olunublar. Milli rəqs üzrə tələbələrin hazırlanmasında əməyi olan universitetin Tələbə Teatr Studiyasının rəhbəri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Gülxarə Əhmədovaya və Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri, Meliorasiya və Geodeziya mühəndisliyi kafedrasının müəllimi Hüseyn İmanova da universitetin təşəkkürnaməsi təqdim olunub. Sonda tədbirin qalibi olmuş Şərur yallısı nümayiş olunub.

Qeyd edək ki, müsabiqə-festivalda respublikada fəaliyyət göstərən musiqi təmayüllü ali təhsil müəssisələri istisna edilməklə, ümumilikdə, ölkə üzrə 28 ali təhsil müəssisəsi qatılıb. Festivalda özfəaliyyət yaradıcılıq kollektivləri, dərnək və studiyaları, onlardakı solo ifaçılar, həvəskar müğənni, rəqqas, bədii qiraətçi, musiqiçilər, həmçinin orkestr və ansamblar (xor, xalq çalğı alətləri, estrada, vokal-instrumental, simli alətlər, aşıqlar və sair), rəqs kollektivləri (milli, müasir, bal və sair), solo ifaçılar (bədii qiraətçilər, müxtəlif musiqi alətlərində ifa edən fərdi ifaçılar, solo ifaçılar və sair) iştirak ediblər.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

*İyulun 6-da Dövlət İmtahan Mərkəzi III ixtisas qrupu üzrə qəbul imtahanı keçirib.*

# III ixtisas qrupu üzrə növbəti qəbul imtahanı keçirilib



İmtahan respublikanın 12 şəhər və rayonunda təşkil olunub. İmtahan saat 10[00]-da başlanıb və 3 saat davam edib. İmtahan keçirilən şəhər və rayonlarda 70 imtahan binası, 1242 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 70 ümumi imtahan rəhbəri, 206 imtahan rəhbəri, 1556 nəzarətçi-müəllim, 202 buraxılış rejimi əməkdaşı, 70 bina nümayəndəsi ayrılıb. İmtahanda 16 min 620 abituriyent iştirak edib. Abituriyentlərdən 15 min 159 nəfəri Azərbaycan, 1461 nəfəri isə rus bölməsinin məzunudur.

Naxçıvan Muxtar Respublikasında imtahan Naxçıvan şəhər 5, 11, 14 nömrəli tam orta məktəblərdə təşkil olunub. 765 abituriyentin iştirak etdiyi imtahanın keçirilməsi üçün 61 zal, 9 rəhbər, 73 nəzarətçi ayrılıb. Nəticələrin yaxın 2 həftə ərzində elan olunması nəzərdə tutulur.

**Güntac ŞAHMƏMMƏDLİ**

*Yaşadığımız dünya, bizi əhatə edən maddi aləm son dərəcə gözəl, zəngin və rəngarəngdir. Özünəməxsus xüsusiyyətləri ilə sanki bir harmoniya yaradan bu aləm təbiət adlanır. Bizi qoynunda böyüdüb, bəsləyən təbiət ikinci anamızdır. Ona məxsus gözəlliklərin qorunması isə insanlardan, yəni bizdən asılıdır. Hər bir şəxs təbiəti qorumalı, ona qayğı və məhəbbətlə yanaşmalıdır. Ana təbiət öz çalarları, təzadları ilə gözəldir. Nə xoşbəxtik ki, doğma Azərbaycanımızın hər bir guşəsi təbiətin al-əlvan rəngləri ilə bir vəhdət təşkil edir, necə deyərlər, Uca Yaradan sanki heç bir nemətini torpağımızdan əsirgəməyib.*



*Estafet*

# Təbiət gözəli NAXÇIVAN

Ana yurdumuzun hər daşı, qayası bizim üçün əzizdir, doğmadır, bir sözlə, Vətənin hər bir yeri gözəldir, amma mən sizə təhsil aldığım bir diyardan – Azərbaycanın ayrılmaz parçası, tarixin, əsrlərin, qərinələrin, hətta minilliklərin süzgəcindən keçərək elm-irfan ocağı kimi şöhrət tapmış Naxçıvanın əsrarəngiz təbiətindən danışmaq istəyirəm. Yaxşı olar ki, ilk əvvəl bu qədim yurd yerinin geocoğrafi əhəmiyyəti barədə qısaca məlumat verək. Naxçıvan Muxtar Respublikası Qafqaz yaylasının cənub-şərqində yerləşir. Dəniz səviyyəsindən orta yüksəkliyi 1450 metr olan bu diyarın təbiəti də rəngarəng və maraqlıdır. Əsrarəngiz gözəlliyi, zəngin flora və faunası ilə insanları özünə cəlb edən bu coğrafi ərazini Kiçik Qafqazın Zəngəzur və Dərələyəz dağ silsilələri əhatə edir. Ən hündür zirvəsi isə Azərbaycanın incisi sayılan Ordubad rayonu ərazisində yerləşən Qapıcıq dağıdır.



Yeraltı və yerüstü sərvətlər ilə zəngin olan Naxçıvanı həm də “mineral sular muzeyi” adlandırırlar. Təsadüfi deyil ki, burada 200-dən çox təbii su qaynağı var. Flora və faunası zəngin olan bu diyarda 2782 ali bitki növü vardır və zəngin heyvanlar aləminə malikdir. Öz gözəlliyi, füsunkarlığı, zəngin mədəni-tarixi irsi, özünəməxsus mətbəxi və yüksək qonaqpərvərlik ənənələri hər il bölgəyə çoxsaylı turistlərin gəlməsinə səbəb olur. Naxçıvan diyarı canlı təbiət abidələrinin zənginliyi ilə də diqqəti cəlb edir. Gələn hər bir turist adı dillər əzbəri olan Batabat yaylağına, ümidlərin, duaların qəbul olduğu “Əshabi-Kəhf” Dini-Mədəni Abidə Kompleksinə ekskursiya edir. Elə yazımızın bu məqamında hər misrası ilə qəlbimizi ovsunlayan sevimli şairimiz Məmməd Arazın doğulduğu doğma diyarını vəsf etdiyi şeirlərindən bəhrələnmək yerinə düşər:

*Sinəmdə o yerin dağ havasıdır,*
*Qaynar bulaqları qaynar qanımda.*
*Mənim ürəyimin bir parçasıdır*
*Doğma Şahbuzum da, Naxçıvanım da…*

Odlar yurdu Azərbaycanın qədim və ayrılmaz bir hissəsi olan Naxçıvanın özünəməxsus iqlim şəraiti vardır. Muxtar respublika özünün kəskin kontinental iqlimi ilə Azərbaycanın digər fiziki-coğrafi ərazilərindən fərqlənir. Ərazidə iqlimi yaradan əsas amillər Günəş şüalarının bolluğu, atmosfer dövranının mürəkkəbliyi, relyefin isə xeyli müxtəlif olması ilə səciyyələnir. Burada qış qısa, soyuq və qarlı, yay uzun, quru və çox isti keçir. Təbii şəraitə görədir ki, burada yaşıllıqların həcmi azlıq təşkil edir. Amma naxçıvanlılar bunu ndə öhdəsindən gəliblər. Muxtar respublika ərazisində təkcə son dövrdə kütləvi şəkildə aparılan yaşıllaşdırma tədbirləri nəticəsində meşə və yaşıllıqların həcmi 20 faizdən çox artıb. Ən quraqlıq ərazilərə belə suvarma suyu çəkilərək yaşıllıqlar salınıb. Az əvvəl də qeyd etdiyimiz kimi, Naxçıvan mineral su mənbələri ilə zəngindir. Azərbaycanın mineral su ehtiyatının 60 faizi bu diyarın payına düşür. Bu mənbələr kimyəvi tərkibinə görə müxtəliftipli olub təsərrüfatda, içməli su təchizatında, müalicə məqsədilə və sənayedə istifadə edilir.



Tarixi qaynaqlardan məlum olur ki, həmişə dirilik suyu, şəfa suyu olan bulaqlardan bəhrələnib, onların müalicə qüdrətinə “Tanrı ocağı”, – deyə inanmışlar; “Qotur suyu”, “yel suyu”, “mədə suyu”, “dəri suyu”, “şor su”, “Vayxır” və digər bu kimi adlar həmin suların müalicəvi xüsusiyyətlərinə görə adlandırılmışdır.

Araz üstə qərar tutan, yaşı əsrlərlə ölçülən doğma Naxçıvanımızın müstəqillik yaşı çox olmasa da, yüksək sürətlə inkişaf etməsi bir çox qələm sahiblərinin qəlblərini riqqətə gətirir və bir-birindən gözəl əsərlər məhz bu yurd yerinin eşqinə yaranır. O əsərlərin hər birində yurda bağlılıq, torpağa sədaqət, Vətənə məhəbbət, milli-mənəvi dəyərlərə ehtiram hissi ən gözəl şəkildə təzahür edir. Ruhumuzu, qəlbimizi, zövqümüzü oxşayan, sanki balasını qucan qayğıkeş ana timsalını gözlərimizdə canlandıran Naxçıvan dağları neçə-neçə şeirlərə mövzu, əsərlərə ideya bəxş edir. Əzəmətli, vüqarlı duruşu ilə hər kəsi özünə valeh edən Naxçıvan dağları haqqında ümummilli lider Heydər Əliyev demişdir: ***“Naxçıvan dağlarında kişi gözəlliyi var”.*** Elə mövzumuzu şair Muxtar Qasımzadənin vüqarlı, dəyanətli Naxçıvan dağlarına, ələlxüsus, bu elin simvolu sayılan Haçadağa həsr etdiyi şeirlə tamamlamaq istərdik:

*Başında həmişə dumanlar gəzər*
*Çağlayar, qaynayar, daşar Haçadağ.*
*Çiçəklər köksündə yazıya bənzər,*
*Olar ilk bahara şüar Haçadağ.*

**Səbinə ƏLİYEVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi***

## 6 gün ərzində muxtar respublikada 11 milyon kvadratmetrdən artıq ərazi dezinfeksiya olunub



Muxtar respublikada infeksion və mövsümi xəstəliklərə, viruslara qarşı yaşayış binaları, prospektlər, avtomobil yolları və insanların sıx toplaşdığı yerlər dezinfeksiya edilir, qabaqlayıcı, genişmiqyaslı profilaktik tədbirlər görülür. Təsdiq olunan Tədbirlər Planına uyğun olaraq iyulun 1-dən Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi, Gigiyena və Epidemiologiya Mərkəzi və Dövlət Baytarlıq Xidmətinin birgə təşkilatçılığı ilə bütün yaşayış məntəqələrində genişmiqyaslı dezinfeksiya işləri aparılır.



Qrafik əsasında səhər saatlarından etibarən Fövqəladə Hallar Nazirliyinin 12 xüsusi təyinatlı avtomobilinin iştirakı ilə Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarındakı avtomobil yolları, piyada səkiləri dezinfeksiya olunur. Fövqəladə Hallar Nazirliyinin 90 nəfərə yaxın şəxsi heyəti, Gigiyena və Epidemiologiya Mərkəzinin dezinfeksiya qrupu və Dövlət Baytarlıq Xidmətinin dezinfeksiyaedici avtomobili tərəfindən isə bazarlar və böyük ticarət mərkəzləri, muzeylər, tarix-memarlıq abidələri, istehsal müəssisələri, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, idarə, müəssisə və təşkilatların inzibati binaları və xidmət sahələri, ümumiyyətlə, insanların daha çox istifadə etdiyi yerlər dezinfeksiya olunur.

Genişmiqyaslı tibbi profilaktik tədbirlər iyulun 10-dək davam etdiriləcək.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə gününün tələbidir

***Sual: Hansı hallarda şəxs işsiz kimi qeydiyyatdan müvəqqəti çıxarılır?***

**Cavab:** “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən şəxs hərbi və ya alternativ xidmətə, hərbi toplanışlara çağırıldıqda – həmin müddətdə, barəsində azadlıqdan məhrumetmə və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda – həmin müddətdə, ona təklif olunan münasib işlərdən imtina etdikdə – 1 (bir) il müddətində, fərdi məşğulluq proqramının tərtib olunmasından və (və ya) icrasından imtina etdikdə və yaxud fərdi məşğulluq proqramının icrasına dair hesabatı ayda bir dəfə təqdim etmədikdə işsiz kimi qeydiyyatdan müvəqqəti çıxarılır.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası üzrə 2022-ci ilin iyun ayında verilən elektrik enerjisinin miqdarı, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Enerjinin miqdarı (min kvt/saat) | Enerjinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 5635 | 479,0 | 479,0 | 100,0 |
| 2. | Şərur rayonu | 1685 | 138,5 | 138,5 | 100,0 |
| 3. | Babək rayonu | 1941 | 160,4 | 160,4 | 100,0 |
| 4. | Ordubad rayonu | 785 | 66,8 | 66,8 | 100,0 |
| 5. | Culfa rayonu | 1358 | 112,5 | 112,5 | 100,0 |
| 6. | Kəngərli rayonu | 665 | 57,1 | 57,1 | 100,0 |
| 7. | Şahbuz rayonu | 323 | 26,6 | 26,6 | 100,0 |
| 8. | Sədərək rayonu | 286 | 23,3 | 23,3 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 31415 | 3165,0 | 3165,3 | 100,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **44093** | **4229,2** | **4229,5** | **100,0** |

**Qeyd:** İyun ayında texniki itki nəzərə alınmaqla verilən 44 milyon 93 min kilovat-saat elektrik enerjisinin dəyəri 4 milyon 229 min 200 manat olmuş, cəmi 4 milyon 229 min 500 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,0 faizini təşkil edir.

## Naxçıvan Muxtar Respublikası üzrə 2022-ci ilin iyun ayında verilən təbii qazın həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 1229106 | 191745 | 191767 | 100,0 |
| 2. | Babək rayonu | 979970 | 154675 | 154689 | 100,0 |
| 3. | Ordubad rayonu | 475682 | 70399 | 70404 | 100,0 |
| 4. | Şərur rayonu | 809671 | 121816 | 121822 | 100,0 |
| 5. | Culfa rayonu | 412590 | 63946 | 63949 | 100,0 |
| 6. | Şahbuz rayonu | 281964 | 43857 | 43858 | 100,0 |
| 7. | Kəngərli rayonu | 273098 | 45300 | 45300 | 100,0 |
| 8. | Sədərək rayonu | 111569 | 16463 | 16463 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 11840867 | 2250943 | 2267902 | 100,8 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **16414517** | **2959144** | **2976154** | **100,6** |

### *İtmişdir*

Babək rayonunun Şıxmahmud kəndində yaşamış Məmmədov Məhərrəm Musa oğlunun adına olan MH-0014178 nömrəli çıxarış, AA-003582 inventar nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

ŞƏRQ *qapısı*
**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.***
***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail:** ***serqqapisi@nakhchivan.az***

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Güntac Şahməmmədli**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1500. Sifariş № 599**